# AVTO-İCBARİ ÜZRƏ YADDAŞ VƏRƏQƏSİ

## 1 SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANILMASI PROSESİ

**1)** Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyəti (avto-icbari) üzrə icbari sığorta müqaviləsini həmin növ üzrə fəaliyyətini həyata keçirməsinə icazəsi olan istədiyiniz sığortaçıya müraciət etməklə əldə edə bilərsiniz (https://isb.az/istirakci-sigorta-sirketleri/);

**2)** Sığorta müqaviləsinə dair məlumatlar elektron sistemə daxil edildikdən sonra müqavilədə qeyd olunan **əlaqə nömrənizə SMS vasitəsilə "ödəniş kodu"** ünvanlanacaqdır. Bu zaman sığorta müqaviləsində istifadə etdiyiniz əlaqə nömrəsinin düzgün qeyd olunmasına diqqət yetirin! Bu məlumat sığorta sirrinin və **fərdi məlumatlarınızın** qorunması, həmçinin sığorta hadisəsi baş verdikdə sığortaçının Sizinlə əlaqə saxlaması baxımından zəruridir!



**3)** Sığorta haqqını "ödəniş kodu" əsasında ödəniş portalları vasitəsilə onlayn qaydada və ya ödəniş terminalları vasitəsilə ödəyə bilərsiniz. Ödəniş kodunun qüvvədə olma müddəti fiziki şəxs olan sığortalılar üçün **48 saat,** hüquqi şəxs olan sığortalılar üçün isə **14 gündür**;

**4)** Ödənişi həyata keçirdikdən sonra sığorta müqavilənizdə qeyd olunan **əlaqə nömrənizə** sığorta müqaviləsinin bağlanması ilə bağlı İcbari Sığorta Bürosu tərəfindən SMS ünvanlanacaqdır;

**5)** Sığorta müqaviləsinin qüvvəyədə olma müddəti və ərazisi sığorta şəhadətnaməsində qeyd olunur;

**6)** Sığorta müqaviləsinin bitməsinə **30 gün** və **15 gün** qalmış müqavilədə qeyd olunan **əlaqə nömrənizə SMS** vasitəsilə müqavilənin bitməsi ilə bağlı İcbari Sığorta Bürosu tərəfindən məlumat ünvanlanacaqdır.

## 2 SIĞORTA MÜQAVİLƏSİNƏ ÇIXIŞ İMKANLARI

**1)** Sığorta müqaviləsinin **mövcudluğunu www.isb.az** internet səhifəsində mövcud olan "sığorta müqaviləsini yoxla" bölməsinə daxil olaraq nəqliyyat vasitəsinin **Dövlət qeydiyyat nişanını** və ya sığorta şəhadətnaməsinin nömrəsini daxil etməklə yoxlaya bilərsiniz;

**2)** Sığorta müqaviləsinin **mövcudluğunu** 9707 qısa nömrəsinə nəqliyyat vasitəsinin Dövlət qeydiyyat nişanınını SMS vasitəsilə göndərməklə də yoxlaya bilərsiniz;

**3)** Qüvvədən düşən və qüvvədə olan sığorta müqavilələrinizə dair məlumatları **www.isb.az** internet səhifəsində daxil olaraq **"ŞƏXSİ KABİNET"**inizdə qeydiyyatdan keçdikdən sonra izləyə bilərsiniz.



## 3 SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ NƏ ETMƏLİ

**1)** Hadisə barədə 102 xidməti vasitəsilə Dövlət Yol Polisinə dərhal məlumat verilməlidir. Hadisə nəticəsində xəsarət alan şəxslər varsa, onların həyatını xilas etmək üçün "Təcili yardım"a (103), ehtiyac olduqda FHN-ə (112) və digər lazımi qurumlara məlumat verin.

**2)** Aşağıdakı şərtlərin hər birinin mövcud olduğu halda hadisə baş verdikdə **öz sığortaçınıza** müraciət edə bilərsiniz:

- Hadisədə yalnız iki avtonəqliyyat vasitəsi iştirak etdikdə;
- Hər iki avtonəqliyyat vasitəsinin avto-icbari üzrə qüvvədə olan müaviləsi olduqda;
- zərər yalnız hadisədə iştirak edən avtonəqliyyat vasitələrinə dəydikdə;
- hadisə nəticəsində sağlamlığa zərər dəymədikdə (dərəcəsi təyin edilməyən bədən xəsarətləri istisna olmaqla);
- hadisədə iştirak edən avtonəqliyyat vasitələrindən başqa digər əmlaka zərər dəymədikdə.

**3)** Digər hallarda isə hadisə haqqında zərərvuran şəxsin **sığortaçısına** məlumat verilməlidir.



**4)** Hadisə baş verdikdə sığorta şəhadətnaməsinin hansı sığortaçı ilə bağlanıldığını bilmədiyiniz halda, avtonəqliyyat vasitəsinin Dövlət qeydiyyat nişanını (nümunə: *00XX000*) **9707** qısa nömrəsinə SMS vasitəsi ilə göndərə bilərsiniz.

**5)** Sığortaçının nümayəndəsi hadisə yerinə gələnə kimi hadisə yerini tərk etməyin.

**6)** Zərər dəymiş avnəqliyyat vasitəsi baş verən hadisədən dərhal sonrakı vəziyyətdə saxlanılmalı və sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsi hadisə yerinə gələndə ona təqdim edilməlidir.

Yalnız aşağıdakı hallarda isə bu tələb istisna təşkil edir:

- zərərin qarşısının alınması və həcminin azaldılması, hadisəsinin nəticələrinin aradan qaldırılması, zərər dəymiş əmlakın başqa şəxslərin hərəkətinə mane olmaması, əmlakın sonrakı itkilərinə təhlükə ehtimalı olduğu halda onun nəzarətsiz halda qalmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı;
- sığorta hadisəsi barədə sığortaçı məlumatlandırıldıqdan 5 gün müddətində sığortaçının nümayəndəsi zərər dəymiş nəqliyyat vasitəsinə baxış keçirmədikdə;
- zərər dəymiş nəqliyyat vasitəsi hadisədən dərhal sonrakı vəziyyətdə saxlanmaması ilə bağlı sığortaçının yazılı razılığı olduqda.

## 4 SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ PROSESİ

**1) Sığorta ödənişi aşağıdakı sənədlər əsasında həyata keçirilir***:

***Zərər avtonəqliyyat vasitəsinə dəydiyi halda***:

- sığorta ödənişinin alınması barədə ərizə (sığorta tələbi)**;
- zərərvuran şəxsin avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (texniki pasportu);
- **yol-nəqliyyat hadisəsinin təfərrüatları və zərərçəkən şəxs (şəxslər) barədə Dövlət Yol Polisinin arayışı *****
- sığorta ödənişi alan şəxs fiziki şəxs olduqda onun şəxsiyyət vəsiqəsinin surəti, hüquqi şəxs olduqda isə onun nümayəndəsinə verilmiş müvafiq etibarnamə və həmin nümayəndənin şəxsiyyət vəsiqəsinin surəti.
- yol-nəqliyyat hadisəsinin təqsirkarı tərəfindən zərərçəkənin əmlakına vurulan zərərin əvəzi ödənilmiş olduqda belə ödəməni təsdiq edən sənədin müvafiq qaydada təsdiq edilmiş surəti.



***Zərər sağlamlığa dəydiyi halda isə yuxarıdakı* müvafiq sənədlərlə yanaşı*:***

- sağlamlığa dəyən zərər üzrə xəsarətin dərəcəsi haqqında **həkim arayışı**, əlillik halında isə əlilliyin təyin edilməsi ilə bağlı **tibbi-sosial ekspert komissiyasının arayışının surəti**;
- ölüm halında ölümün səbəbi haqqında tibbi ekspertiza rəyinin (sağlamlığına zərər dəyməsi səbəbindən 3 il ərzində ölüm halında ölümün hadisə ilə səbəb əlaqəsində olmasını təsdiq edən tibbi ekspertiza rəyinin), ölüm haqqında şəhadətnamənin, habelə ölənin ailə üzvlərinin onunla qohumluq əlaqəsini təsdiq edən müvafiq sənədlərin (doğum haqqında şəhadətnamənin, yaxud şəxsiyyət vəsiqəsinin, ərə (arvada) münasibətdə nikah haqqında şəhadətnamənin) surətləri;

- yol-nəqliyyat hadisəsinin təqsirkarı tərəfindən zərərçəkənin sağlamlığına vurulan zərərlə əlaqədar hər hansı ödəmə həyata keçirildikdə belə ödəməni təsdiq edən sənədin müvafiq qaydada təsdiq edilmiş surəti.

**<u>Qeyd:</u>**

*** Sığorta ödənişinin verilməsi üçün sığortaçı tərəfindən yuxarıda qeyd olunan sənədlərdən başqa digər sənədlər <u>tələb edilə bilməz</u>.**

**** Sığorta hadisəsi hesab edilə bilən halın baş verməsi barədə məlumat sığortaçıya şifahi qaydada verildikdə, şifahi məlumatın verildiyi vaxtdan 3 iş günü müddətində sığortaçı yazılı sığorta tələbinin formasını sığorta olunana və (və ya) zərər çəkən şəxsə təqdim etməlidir.**

***** Dövlət Yol Polisinin müvafiq arayışı <u>sığortaçılara</u> İcbari Sığorta Bürosunun elektron sistemi vasitəsilə Dövlət Yol Polisi tərəfindən təqdim olunur.**

Aşağıdakı şərtlərin hər biri eyni zamanda mövcud olarsa, **yol-hərəkət iştirakçıları arasında ikitərəfli protokol tərtib edilə bilər**. **Bu halda hadisə haqqında Dövlət Yol Polisinin arayışı tələb olunmur**.

- ✓ hadisə ikidən artıq olmayan avtonəqliyyat vasitəsinin iştirakı ilə baş verdikdə;
- ✓ hadisənin baş verməsində təqsirli olan şəxsin müəyyən edilməsi üzrə yol-hərəkət iştirakçıları arasında mübahisə olmadıqda;
- ✓ hadisə nəticəsində sağlamlığa zərər dəymədikdə;
- ✓ hadisə nəticəsində dəymiş zərərin həcminin 1000 manatdan çox olmaması hadisə iştirakçıları və sığortaçı tərəfindən ağlabatan şəkildə ehtimal edildikdə.

2) Yuxarıda göstərilən sənədlərdən sonuncusunun sığortaçıya təqdim edildiyi və (və ya) alındığı tarixdən 7 iş günündən gec olmayaraq sığortaçı aşağıdakılardan ən azı birini etməlidir:

- zərərçəkən şəxsə sığorta ödənişini verməli;
- zərərçəkən şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş verməlidir.

## 5 SIĞORTA ÖDƏNİŞİNDƏN İMTİNANIN ƏSASLARI

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununun 21.1-ci maddəsi nəzərə alınmaqla, aşağıdakı hallarda sığorta ödənişi verilmir:



- hadisə və ya hal hərbi əməliyyatlar, terrorçuluq, kütləvi iğtişaşlar, nüvə partlayışı, radioaktiv çirklənmə ilə bağlı olduqda;
- sığorta tələbi üçüncü şəxsin pul, qiymətli kağızlar, qiymətli metallar və qiymətli daşlar, sənət əsərləri, o cümlədən rəsm əsərləri, qravüralar, heykəllər, həmçinin modellər, plan və eskizlər, ixtira patentləri, sənədlər, kitablar və yazılar şəklində olan əmlakına dəymiş zərərlə bağlı olduqda;
- sığorta tələbi mənəvi zərərlə və ya gəlir itkisi ilə bağlı olduqda;
- sığorta tələbi zərər çəkən şəxsin cərimə, dəbbə pulu, peniya ödəməsi ilə bağlı olduqda.